TƏDBİR

# Aqrar Biznes festivalları yekunlaşdı

**Bakıda Kənd Təsərrüfatı Nazirliyinin Aqrar İnnovasiya Mərkəzinin təşkilatçılığı ilə bölgələrdə təşkil olunan Aqrar Biznes festivallarının yekununa həsr edilmiş tədbir keçirilib.**

Tədbirdə Kənd Təsərrüfatı Nazirliyinin, Elm və Təhsil Nazirliyinin, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, Gənclər və İdman Nazirliyinin, Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin, Azərbaycan Biznesinin İnkişafı Fondunun, Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının, Dövlət Məşğulluq Agentliyinin, Peşə Təhsili Dövlət Agentliyinin və digər müvafiq qurumların rəhbər şəxsləri, Milli Məclisin deputatları, sahibkarlar və fermerlər iştirak ediblər.

**Tədbirdə açılış nitqi ilə çıxış edən kənd təsərrüfatı naziri Məcnun Məmmədov bildirib ki,** Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyasında kənd təsərrüfatı prioritet və strateji sahələrdən biri kimi müəyyən edilib: "Son illərdə kənd təsərrüfatında istehsalın səmərəliliyinin artırılması, müasir texnologiyaların tətbiqi, fermerlərin maliyyə və texniki resurslara çıxışının asanlaşdırılması istiqamətində mühüm addımlar atılıb. Rəqəmsal həllərin tətbiqi, elektron kənd təsərrüfatı platformasının genişləndirilməsi, ekoloji cəhətdən dayanıqlı istehsal modellərinə keçid dövlət siyasətinin əsas istiqamətlərindəndir. İqlim dəyişikliklərinin təsirlərinin azaldılması, torpaq və su ehtiyatlarından səmərəli istifadə, eləcə də dəqiq kənd təsərrüfatının tətbiqi aqrar sektorun rəqabətqabiliyyətliliyini daha da artırır. Məhz bu strateji hədəflərin regionlarda təşviqi məqsədilə Aqrar Biznes festivalları təşkil olunub. Cari ildə ölkənin 13 iqtisadi rayonunu əhatə edən 28 rayonda 32 festival keçirilib, 8 milyon manatdan artıq satış icra olunub. Festivallar çərçivəsində toxum sərgi-satış yarmarkaları, kredit yarmarkaları, panel müzakirələr və təlimlər təşkil edilib".






Nazir qeyd edib ki, bu festivallar kiçik və orta sahibkarlığın inkişafına, qadın fermerlərin və gənclərin aqrar sahəyə fəal cəlb olunmasına, bilik və təcrübə mübadiləsinin genişlənməsinə mühüm töhfə verib, eyni zamanda, məhsul festivalları regionların ixtisaslaşmış kənd təsərrüfatı məhsullarının tanıdılmasına və brendləşdirilməsinə şərait yaradıb.

**Tədbirdə çıxış edən Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar Təhməzli vurğulayıb ki,** aqrar sahədə innovasiyaların təşviqi, fermer və sahibkarların bilik və imkanlarının genişləndirilməsi, habelə dövlət-özəl sektor əməkdaşlığının gücləndirilməsi baxımından bu cür festivalların əhəmiyyəti danılmazdır: "Ölkənin müxtəlif regionlarında təşkil olunan Aqrar Biznes festivalları artıq aqrar sektor üçün mühüm dialoq, bilik və təcrübə mübadiləsi platformasına çevrilib. Bu festivallarda fəal iştirak etməklə əsas məqsədimiz aqrar istehsalda təhlükəsizliyin, keyfiyyətin və dayanıqlılığın təmin edilməsini fermer və sahibkarlara birbaşa, aydın və praktik mexanizmlər vasitəsilə çatdırmaqdır. Bu xüsusda vurğulamaq lazımdır ki, hər il Kənd Təsərrüfatı Nazirliyi tərəfindən təşkil olunan arıçılıq məhsullarının ənənəvi respublika sərgi-satış yarmarkaları çərçivəsində satışa çıxarılan bütün məhsullar risk əsaslı yoxlamalara cəlb olunur".

**Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının (ASK) prezidenti Məmməd Musayev çıxışında bildirib ki,** kənd təsərrüfatı iqtisadi fəaliyyət sahəsi olmaqla yanaşı, eyni zamanda, sosial sabitliyin və milli təhlükəsizliyin əsas dayaqlarından biridir: "Ölkəmizdə məşğul əhalinin təxminən 35 faizi birbaşa və dolayı yolla aqrar sektorla bağlıdır. Kənd təsərrüfatı və emal sahələrinin qeyri-neft ÜDM-də payı isə artıq 10 faizə yaxınlaşır. Xüsusilə qlobal qeyri-sabitlik, regional münaqişələr və iqlim dəyişiklikləri fonunda qida təhlükəsizliyi məsələsi strateji məsələyə çevrilib. Qeyd edim ki, 2025-ci il 1 oktyabr tarixinə olan məlumata görə, ölkəmizdə kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsində 13 minə yaxın kommersiya təşkilatı fəaliyyət göstərir. Bu müəssisələrdən 26-sı iri, 175-i orta, 417-si kiçik, 12 mini isə mikro sahibkarlıqdır. Fəxr hissi ilə qeyd etmək istəyirəm ki, Azərbaycan sahibkarları artıq bir sıra ölkələrə, o cümlədən Səudiyyə Ərəbistanına, Qətərə, BƏƏ-yə və digər Körfəz ölkələrinə öz məhsullarını uğurla ixrac edirlər. Bu bazarlarda "Made in Azerbaijan" brendinə olan etimad ildən-ilə artır."

**Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev vurğulayıb ki,** aqrar sahəyə investisiya cəlb etmək, yeni məhsulların daxili və xarici bazarlara çıxışını genişləndirilmək, fermer və sahibkarlar arasında işgüzar əlaqələri möhkəmləndirmək vacib məqsəddir və bu, dəyərləndirilməlidir: "Fermerlərin innovasiyalara əlçatanlığını təmin etmək, sahibkarların yüksək məhsuldarlıq əldə etmələri üçün müvafiq təminatlarla təmini günümüzün tələbatıdır. Yerli istehlakçıların yüksək keyfiyyətli məhsullarını və onların iş təcrübəsini geniş auditoriyaya təqdim etmək, özəl toxumçuluğun inkişaf perspektivləri və toxum subsidiyalarının verilməsində dövlət dəstəyi barədə əhalini məlumatlandırmaq qarşıya qoyulan başlıca vəzifələrdəndir".




**Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin İdarə Heyətinin sədri Orxan Məmmədov qeyd edib ki,** Aqrar Biznes festivalları təkcə məhsulların nümayişi deyil, eyni zamanda ölkəmizin aqrar sektorunun potensialının, zəhmətkeş fermerlərimizin və sahibkarlarımızın əzminin, innovativ yanaşmalarının bariz göstəricisidir: "Aqrar sahə ölkəmizin iqtisadiyyatında, əlbəttə ki, strateji əhəmiyyət kəsb edir. Bu sahə həm ərzaq təhlükəsizliyinin təmin olunmasında, həm regionların sosial-iqtisadi inkişafında, həm də məşğulluğun artırılmasında mühüm rol oynayır. Son illərdə dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən ardıcıl islahatlar aqrar sektorun daha da rəqabətqabiliyyətli, ixracyönümlü və dayanıqlı inkişafına şərait yaradıb. Bu festivallar bir daha göstərir ki, Azərbaycan fermeri və aqrar sahibkarı artıq yalnız istehsalçı kimi deyil, eyni zamanda brend yaradan, bazarları araşdıran, innovasiyalara açıq olan güclü bir iqtisadi subyektdir. Yerli məhsullarımızın keyfiyyəti, qablaşdırılması, təqdimatı və bazara çıxış imkanları ilbəil daha da təkmilləşir. Kiçik və Orta Biznesin İnkişafı Agentliyi olaraq bizim əsas məqsədimiz aqrar sahibkarların bilik və bacarıqlarının artırılması, maliyyə və qeyri-maliyyə alətlərinə çıxışının genişləndirilməsi, eyni zamanda, onların yerli və beynəlxalq bazarlara hazırlanmasıdır. Bu festivallar da məhz həmin məqsədlərə xidmət edir."







**Azərbaycanda Qadın Sahibkarlığının İnkişafı Assosiasiyasının İdarə Heyətinin sədri Səkinə Babayeva bildirib ki,** qadınların istehsal proseslərinə cəlb olunması həm sosial rifahın yüksəlməsinə, həm də ərzaq təminatının güclənməsinə mühüm töhfə verir: "Dövlət qurumları, beynəlxalq təşkilatlar və yerli tərəfdaşların birgə fəaliyyəti nəticəsində kənd yerlərində yaşayan qadınlar üçün yeni imkanlar yaradılıb. Son illərdə regionlarda qadınların sosial və iqtisadi fəallığının artması müşahidə olunur. Xüsusilə məşğulluq proqramları, təlimlər və rəqəmsal bacarıqların inkişafına yönəlmiş layihələr kənd qadınlarının öz potensiallarını reallaşdırmasına şərait yaradıb. Pandemiya dövründə həyata keçirilən dəstək tədbirləri, o cümlədən internetə çıxış və təhsil imkanlarının genişləndirilməsi bu prosesi daha da sürətləndirib. Qadın sahibkarlığının dəstəklənməsi, institusional mexanizmlərin gücləndirilməsi və dövlət-özəl sektor əməkdaşlığının genişləndirilməsi əsas prioritetlər sırasında yer alır."






**Daha sonra "Caspian Event Organisers" şirkətinin direktoru Bəxtiyar Hidayətzadə və Aqrar İnnovasiya Mərkəzinin direktoru Anar Cəfərov** Aqrar Biznes Festivallarının fermerlərin kənd təsərrüfatı istehsalı vasitələrinə və güzəştli aqrar kreditlərə əlçatanlığının təmin edilməsi baxımından əhəmiyyətindən danışıblar. Qeyd olunub ki, Aqrar Biznes Festivalları gələcək illərdə də kənd təsərrüfatının innovativ, rəqabətqabiliyyətli və dayanıqlı inkişafına mühüm töhfələr verəcək.

Qeyd edək ki, son illər ərzində bölgələrdə ümumilikdə 90 Aqrar Biznes Festivalı keçirilib. Bunlardan 32-si 2025-ci ildə baş tutub. Bu il keçirilən festivallarda ümumilikdə 421 907 nəfər iştirak edib, bunların 38 492 nəfəri fermer, 383 415 nəfəri isə ziyarətçi olub.

Festivallar çərçivəsində təkcə 2025-ci ildə bölgələrdə rayon icra hakimiyyətləri ilə birgə 19 Məhsul Festivalı təşkil olunub. Gələn il keçiriləcək 19-cu Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı ("Caspian Agro 2026") sərgisində məhsul festivalları keçirilən bölgələrin "Azərbaycan pavilyonu" adı altında stendlə təmsil olunması planlaşdırılır.

Aqrar Biznes festivalları çərçivəsində 2025-ci ildə ölkənin 8 iqtisadi rayonunda 14 toxum sərgi-satış yarmarkası, kredit yarmarkaları, "Dəqiq kənd təsərrüfatında süni intellektin tətbiqi" layihəsi çərçivəsində isə 5 rayonda, o cümlədən Zəngilan rayonunda və Xankəndi şəhərində "Bootcamp" proqramları təşkil olunub. Bootcamp proqramlarına 20-yə yaxın ali təhsil müəssisəsindən, süni intellektin tədris olunduğu ixtisaslar üzrə təhsil alan 90-a yaxın tələbə qatılıb. Aqrar Biznes festivallarına həsr olunmuş yekun tədbir "Aqrar sahədə dövlət qurumları arasında əməkdaşlıq imkanları" mövzusunda panel müzakirələrlə davam etdiriləcək.



**Aqrar İnnovasiya Mərkəzinin direktoru Anar Cəfərov jurnalistlərə açıqlamasında bildirib ki,** Kənd Təsərrüfatı Nazirliyinin Aqrar İnnovasiya Mərkəzi tərəfindən keçirilən bu tədbir bölgələrdə təşkil olunan bir sıra silsilə festivalların yekun tədbiri kimi qiymətləndirilir: "Qeyd etmək istəyirəm ki, il ərzində biz 28 rayonda tədbir keçirmişik. Bu tədbirlər Aqrar Biznes festivalları adlanır. Bu tədbirlərin əsas mahiyyəti kənd təsərrüfatı şirkətləri ilə fermerlər arasında işgüzar əlaqələrin qurulmasına yönəlib. Aqrar Biznes festivalları dövlət qurumları tərəfindən dəstəklənir və burada fermerlərimiz kənd təsərrüfatında istifadə elədikləri ən innovativ texnika, dərmanlar, gübrələr, toxumlar və digər innovativ avadanlıqlarla tanış ola və öz təsərrüfatında tətbiq edə bilərlər: "11 fərqli rayonda 19 məhsul festivalı keçirilib. Ümumi olaraq bu il təşkil olunan tədbirlərdə satış həcmi 8 milyon manatdan çox olub. Sevindirici haldır ki, bölgələrdə keçirilən tədbirlərdə sərgi yarmarkalar təşkil olunub. Burada 10-dan artıq bank-maliyyə kredit təşkilatları, o cümlədən Aqrar Kredit və İnkişaf Agentliyi, Aqrar Sığorta Fondu, Sahibkarlığın İnkişafı Fondu və digər maliyyə qurumlarının nümayəndələri aktiv şəkildə iştirak ediblər. Xüsusilə də bizim fermerlərimizi maliyyə savadlılığının artırılması və dövlət tərəfindən verilən güzəştlərdən necə yararlanmalarını əyani şəkildə nümayiş etdirə biliblər."

A.Cəfərov məlumat verib ki, bu festivallar çərçivəsində bölgələrdə aqrar sahəyə dövlət dəstəyi panel müzakirəsi keçirilib: "Bu il ərzində biz 14 panel müzakirəsi keçirmişik. Bu panellərdə bir sıra dövlət fondlarının və bankların mütəxəssisləri iştirak ediblər. Fermerlərimizi maraqlandıran sualları birbaşa olaraq cavablandırıblar. O cümlədən qeyd etmək istəyirəm ki, bu tədbirlər çərçivəsində toxum sərgi satış yarmarkaları da keçirilib. Ümumilikdə dörd toxum sərgi satış yarmarkaları təşkil olunub."

Mərkəzin direktoru vurğulayıb ki, bu tədbirlərdə bizim gənc startapçılarımız da iştirak ediblər: "Onlar da fermerlərə öz təsərrüfatlarına uyğun olaraq maraqlı, ağıllı həllər təklif ediblər ki, fermerlərimiz də öz təsərrüfatlarında müasir texnologiyalar tətbiq etməklə daha çox məhsuldarlıq əldə etmiş olurlar. Qeyd etmək istəyirəm ki, artıq gələn ildən başlayacaq "Caspian Agro" sərgisi artıq "Caspian Agro Region" formatında, yeni Kənd Təsərrüfatı Sərgisi Region formatında keçiriləcəkdir. Gələn ildən artıq kənd təsərrüfatı sərgisi çərçivəsində keçirilən bu sərgidə nazirliyin və onun tabeli qurumlarının ümumi il ərzində keçirdikləri konfrans, forumların hamısı məhz kənd təsərrüfatı sərgisi çərçivəsində təşkil olunacaq."



**Orxan Vahidoğlu,**
***"İki sahil"***